# Xalq şairi Zəlimxan Yaqubla bir görüşün təəssüratı



Xalq şairi Zəlimxan Yaqub ömrünün son on ilində Şəki Pedaqoji Kolleci ilə daim əlaqə saxlamış və bu təhsil ocağını özünə doğma bilmişdir. Bunun səbəblərindən biri şairin bu təhsil ocağında çoxlu dostlarının olması, həm də tələbə və müəllimlərin onun poeziyasına hədsiz dərəcədə vurğunluğu idi. Kollecə hər gəlişi, sözün əsl mənasında, bir toy-bayrama çevrilirdi. Söz mülkünün böyük ustadı belə tədbirlərə öz yaxın dostlarını və ailə üzvlərini də gətirərdi. Böyük şairin kollecin kollektivi ilə son görüşü onun 60 illik yubileyinə təsadüf etmişdi. Həmin görüş kollecin müəllim və tələbələrinin yadında indi də xoş xatirə kimi qalır. Görüşdə həm də filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə və tənqidçi-publisist Azər Turan iştirak edirdilər. Görüşü açan kollecin direktoru Rafik Şükürov bildirdi ki, tələbələr şairin şeirlərini elə durduqları yerdən ifa edə bilərlər.

Akt zalını şairin şeirləri sanki sehirləmişdi. Şairin ən çox sevdiyi sazın sədaları altında deyilən şeirlər tamşaçılara böyük zövq verirdi. Tələbələr tərəfindən şairin "Zəlimxan nə yazsa saz dilindədi", "Sevgini dəfn eylədim", "O qızın göz yaşları", "İlahi", "Göylərə varan mənəm", "Sən qalib gələcəksən", "Torpaq kimi", "Dünya", "Səni sevmək üçün gəldim dünyaya", "Bu yaşıl ağacın altı bizimdi", "Biz niyə sevməyək bir-birimizi", "Allah səni pənahında saxlasın", "Görüş", "Təbrizdən ayrılanda" şeirləri yerbəyerdən səsləndi. Sazın müşayiəti ilə Nəriman Səmədovun və Pərviz Zeynalovun ifasında Zəlimxan Yaqubla Osman Sarıvəllinin, Zəlimxan Yaqubla Mikayıl Azaflının deyişmələri də iştirakçılarda dərin iz buraxdı. Zalın müxtəlif səmtlərindən tələbələrdən Gültacın, Nailənin, Şəhlanın, Fəridənin, Pərvinin, Əminənin, Kəmalənin ifalarında "Dur ayağa məmləkətim, qalx ayağa millətim" adlı vətənpərvərlik motivli şeir gurultulu alqışlarla qarşılandı. Daha sonra professor Nizaməddin Şəmsizadə çıxış edərək şairlə bağlı xatirələrini bölüşdü, tədbirin yüksək səviyyədə olduğunu vurğuladı. Tənqidçi Azər Turan da çıxışında şairin yaradıcılığından, onun saza, sözə məhəbbətindən, turançılıq ideyalarının təbliğindəki motivlərdən geniş söhbət açdı.

Sonda yubilyar çıxış edərək görüş üçün kollecin kollektivinə öz dərin təşəkkürünü bildirdi. Şair öz şeirlərini böyük həvəslə və intonasiya ilə bir saatdan çox ifa etdi.

Onu da qeyd etməyi özümüzə borc bilirik ki, şair Şəkidəki müəllim dostlarının övladlarının toylarında da tez-tez iştirak edirdi. Bu gün xalq şairi aramızdan vaxtsız getsə də onun şeirləri zaman-zaman oxucularının dilindən düşməyəcək. Şeirlərinin birində şairin özünün dediyi kimi:

*Dərd daşıdım, qəm yüklədim şələmə.*
*Şeirə döndü, səsim düşdü aləmə*
*Ey Zəlimxan, yaxşı sarıl qələmə*
*Qalsa yenə bu nəğmələr qalacaq!*

**Nəriman SƏMƏDOV,**
*Şəki Pedaqoji Kollecinin "Təhsil uğrunda" qəzetinin baş redaktoru*